**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI**

# QƏRAR
**№ SQ-08/2021-1**

**Naxçıvan şəhəri** **12 fevral 2021-ci il**

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 11 fevral 2021-ci il tarixdə keçirilmiş iclas protokolunun və "Məntəqə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın təsdiq edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.13-cü, 23.3-cü, 23.4-cü, 23.6-cı və 98-ci maddələrinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası

**q ə r a r a a l ı r:**

**1.** Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 11 fevral 2021-ci il tarixdə keçirilmiş iclasının protokolu təsdiq edilsin.

**2.** "Məntəqə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimat təsdiq edilsin.

**3.** Qərar 24 saat ərzində Mərkəzi Seçki Komissiyasının məlumat lövhəsindən asılmaq yolu ilə dərc edilsin və dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr:** **Əjdər Əliyev**

**Katib:** **Əkrəm Hüseynzadə**